Yanında əri və ya məhrəmi olmayan qadın iki günlük məsafəyə yola çıxmasın

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə on iki döyüşdə iştirak etmiş Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) rəvayət edilir ki , o, demişdi: Mən Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) dörd söz eşitdim və mənim xoşuma gəldi. O, belə dedi: "Yanında əri və ya məhrəmi olmayan qadın iki günlük məsafəyə yola çıxmasın. İki gün: Fitr (Ramazan) və Qurban bayramı günləri oruc tutulmaz. Sübh namazından sonra günəş çıxana qədər və əsr namazından sonra günəş batana qədər namaz yoxdur. (İbadət üçün) üç məsciddən başqasına səfər edilməz: Məscidul-Həram, Məscidul-Əqsa və mənim bu məscidim".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dörd şeyi qadağan etdi: Birincisi: Qadının, əri və ya məhrəmlərindən biri - oğul, ata, qardaş oğlu, bacı oğlu, əmi və dayı kimi qadına evlənməsi əbədiyyən haram olan kişilərdən biri - olmadan iki günlük məsafəyə səfər etməsinin qadağan edilməsi. İkincisi: İstər nəzir, istər nafilə, istərsə də kəffarə orucu olsun, Ramazan bayramı və Qurban bayramı günü müsəlmanın oruc tutmasının qadağan edilməsi. Üçüncüsü: Əsr namazından sonra günəş batana qədər və sübh namazından sonra günəş çıxana qədər nafilə namazı qılmağın qadağan edilməsi. Dördüncüsü: Bu üç məsciddən başqa hər hansı bir yerə səfər etmək, oranın fəzilətli olduğuna inanmaq və orada yaxşı əməllərin savabının qat-qat artacağına inanmaq qadağandır. Ona görə namaz qılmaq üçün başqa yerlərə səfər etməyin, çünki savab yalnız bu üç məsciddə, Məscidul-Həram, Peyğəmbər məscidi və Məscidul-Əqsada qat-qat artıq yazılır.

http://www.sunnah.global/hadeeth/az/show/10603